**Nərmin ƏLİYEVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**narminbdu@gmail.com**

# MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR YARADICILIĞINDA İCTİMAİ-SİYASİ MOTİVLƏR

Görkəmli sənətkar Şəhriyar poeziyasının mövzu dairəsini tam mənası ilə əhatə etmək bir neçə səbəbdən çətinlik törədir. Çünki Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının mövzu dairəsi çox genişdir. Ənənəvi lirik, didaktik, ictimai mövzularda əsərlər yazmaqla yanaşı, o, XX əsrin sənətkar qarşısında qoyduğu yeni, mürəkkəb suallara da cavab axtarmış, Azərbaycan xalqı ilə bərabər bütün İran və dünya xalqlarının taleyini düşünmüş, məişət mövzularına toxunmuş, xəyalən ölməz sələfləri ilə görüşmüşdü. Şairin əsərlərinin mövzu dairəsinin tədqiqində ən böyük çətinlik ondan ibarətdir ki, o, çox vaxt eyni əsərdə bir mövzudan digərinə keçir, bir şeirdə, poemada çeşidli mövzu çalarlarını əhatə edir.

Şəhriyar poeziyasının mühüm hissəsini memuar və epistolyar ədəbiyyatına aid etmək olar. Bu əsərlərin hər birində çoxsaylı ictimai-siyasi, milli və s. məsələlər işıqlandırılmışdır. Şəhriyarın farsca şeir yaradıcılığında ifadəsini tapan mövzuların aşağıdakı kimi təsnifatını apara bilərik:

1. Lirik-aşiqanə şeirlər;
2. İctimai-siyasi və vətənpərvərlik mövzulu şeirlər;
3. Fəlsəfi və irfani-dini məzmunlu şeirlər;
4. Ədəbi-nəzəri səciyyəli düşüncələrin ifadəsi;
5. Avtobioqrafik məzmunlu və müasiri olan ayrı-ayrı tarixi şəxslərə həsr etdiyi şeirlər.

Bu mövzuların hamısı Şəhriyarın şeirində eyni səviyyədə işlənməmiş və şairin maraq dairəsində olmamışdır. Şəhriyar

yaradıcılığında ictimai-siyasi motivlər mühüm yer tutur. Şairin öz hiss və düşüncələrini, istək və arzularını məhəbbət şeirlərində böyük məharətlə ifadə etdiyini göstərən Qulamhüseyn Beqdeli eyni zamanda yazır: “Bununla belə, Şəhriyar yaradıcılığında əsas yeri ictimai-siyasi şeirlər tutur. Qeyd etdik ki, Şəhriyar qəmli, kədərli şairdir. Şairin bu ələm və kədəri isə təkcə onun şəxsi həyatı və çətin şəraitdə yaşamasından deyil, bəlkə də yüksək bir ictimai quruluş, azadlıq arzulayıb bu arzulara qovuşa bilməməsindən irəli gəlir”.

Şəhriyarın “Qaranlıq gecələr”, “Yata bilmirəm”, “Hara getsin insan?”, “Allah boyağı”, “Oyun olduq”, “İnsansaz inqilabımız”, “Sabirin xoruzu”, “Allah vədəsi”, “İns və cin”, “İman ilə getdi”, “Qış ağası”, “Nişapurda”, “Təbrizin şahzadə bağı”, “Milli ideal”, “Maarifimiz”, “Bədbəxtlik”, “Camal və kamal”, “Tehran və tehranlı”, “Yetim uşaq”, “Stalinqrad qəhrəmanları” və s. əsərlərində ictimai-siyasi mövzuların əksini tapdığını görürük. Onun farsca yazdığı “Camal və kamal” şeirində İrandakı yoxsulluq və işsizlikdən bəhs olunur:

**مرا به سفره یکی قرص نان خالی نیست**
**فغان که سیر ز حال گرسنه حالی نیست**

*Bizim ki süfrəmizdə yavan çörək də yoxdur,*
*Toxa nə var, yoxsula quru əppək də yoxdur.*

Yoxsulluq o həddə çatıb ki, insanlar bir-birini sevə də bilmirlər. Şair sevgilisinin sözlərindən başa düşür ki, “çörəksiz bir məkanda sevən ürək də yoxdur”. Şeirin sonunda müəllif yoxsulluq dərdinin yalnız ona deyil, əhalinin əksər hissəsinə aid olduğunu bildirir, “çoxunun süfrəsində yavan çörək də yoxdur” deyir.

“Yetim uşaq” şeirində Şəhriyar yoxsulluq ucbatından uşaq həyatından, məktəbdən uzaq düşmüş, küçələrdə dilənçilik edən

bir uşağa müraciətlə İranın problemlərindən, ölkədəki sosial ədalətsizliklərdən acı bir təəssüf hissi ilə danışmışdır. M.Ə.Sabirin “Ey dərbədər gəzib ürəyi qan olan cocuq” misrasıyla başlanan şeirini xatırladan bu əsərdə şair küçədə dilənən uşağı “bağbansız sütül ağac” adlandırır. Çünki onun indi məktəbə gedib biliklərini artırmalı, inkişaf etməli, gələcək həyata hazırlaşmalı vaxtıdır. Şeir bir tərəfdən yiyəsiz, yetim uşağın məzlum, acınacaqlı vəziyyətinə diqqəti cəlb edirsə, digər tərəfdən dövlətin, mövcud rejimin ağır ittihamı kimi səslənir.

Ədəbi irsini diqqətlə nəzərdən keçirdikdə görürük ki, Şəhriyar əsərlərində İranın, Güney Azərbaycanın, demək olar ki, bütün sosial-ictimai problemlərinə toxunmuş, ölkədəki haqsızlığa, özbaşınalığa göz yummamış, əsl sənətkar cəsarəti nümayiş etdirmişdir.

Şəhriyarın hakim təbəqələri ciddi ittiham etdiyi bir məsələ də İranda maarifin bərbad vəziyyəti ilə bağlı olmuşdur. O, “Maarifimiz” şeirində göstərir ki, maarif gənclərin təhsil-tərbiyə ocağı olmalıdır, onları işıqlı gələcəyə aparmalıdır. İranda isə əksinədir, təhsil ocaqları, xaricilərin əliylə yazılmış dərsliklər cəhalət mənbəyidir. Məktəblər uşaqlara nə bir sənət öyrədir, nə də həyatı başa salır. Şeirin sonunda müəllif cəsarətlə maarifi, təhsil sistemini bu günə salan hakimiyyəti xain, satqın adlandırır:

Bu dövlətə qulluq etmək məmləkətə xəyanətdir,
Xainliyə, satqınlığa dəlalətdir maarifimiz.

Görkəmli sənətkar İran qadınlarının vəziyyətinə də laqeyd qalmamış, onların ictimai hüquqlardan məhrum olmalarına qarşı etiraz səsini ucaltmış, qadınları öz hüquqları uğrunda mübariz olmağa çağırmışdır. “Ey qadınlar” şeirində o, qadına üz tutub “hüququnu tələb et, qollarındakı zəncirləri qır” deyir. “Hicabın üz qaralığı” şeirində şair qadınların niqablı vəziyyətinin dözül-

məzliyini, bu məsələdə din xadimlərinin əsas günahkar olduqlarını nəzərə çatdırmışdır:

Aytək üzündən at, gözəlim, o niqabı sən,
Ta ki xəcalət eyləyəsən aftabı sən...

Şəhriyar İranı fəlakətlərə sürükləmiş şovinist şah rejiminə qarşı cəsarətlə etiraz səsini ucaltmış, İran İslam inqilabını alqışlamışdır. İran gənclərinə müraciətlə yazdığı çağırış ruhlu “Milli ideal” şeirində o, ölkənin taleyinə laqeyd olmayan bir vətəndaş kimi mövcud şah rejiminin devrilməsi, yeni qüvvələrin hakimiyyətə gətirilməsi barədə öz düşüncələrini bölüşür.

Lakin əvvəllər İslam inqilabını ürəkdən alqışlayan Şəhriyarın sonrakı şeirlərindəki əhvali-ruhiyyəsində bir xəyal qırıqlığının yarandığını görürük. İnqilabın ilk uğurlarına, imperializmin məğlubiyyətinə sevinən, Azərbaycan türkcəsində çıxmağa başlayan “Varlıq” jurnalını “azadlıq quşu” adlandıran sənətkar “İman ilə getdi” adlı şeirində özünün də, xalqın da aldadılmasından şikayətlənir, hər şeyin əldən getdiyini bildirir. Burada türk dilinin əvvəlki kimi yasaq vəziyyətdə qalmasının Şəhriyarı ən çox narahat edən məsələ olduğunu görürük:

Türki olmuş qadağan, divanımızdan da xəbər yox,
Şəhriyarın dili də “vay!” deyə divan ilə getdi.

Şəhriyarın həyata baxışında, bir çox şeirlərində romantik ruh mühüm yer tutduğu halda, o, müasir dövrün problemlərinə, ictimai-siyasi məsələlərə münasibətini bildirərkən əsl realist sənətkar kimi çıxış edir. Onun elə əsərləri vardır ki, romantik əhvali-ruhiyyə güclü olsa da, hadisələrin dəyərləndirilməsində realist münasibət özünü göstərir. H.Billurinin “romantik əsər” adlandırdığı “Stalinqrad qəhrəmanları” poeması belə sənət nümunələrindəndir. Humanist şair burada İkinci Dünya müharibəsi

zamanı bütün dünyanı işğal etmək istəyən, bəşəriyyətə ölüm saçan alman faşizminin vəhşiliklərini, iç üzünü, mahiyyətini ifşa etmiş, sovet ordusunun qəhrəmanlıqlarını romantik boyalarla mədh etmiş, faşistlərin Stalinqrad döyüşündə məğlub edilməsini Xeyirin Şər üzərində qələbəsi kimi dəyərləndirmişdir.

Şəhriyarın əsərlərinin geniş oxucu kütləsi tərəfindən böyük məhəbbətlə qarşılanmasının əsas səbəbi odur ki, onun şeirlərinin dili sadə və aydındır, axıcı və obrazlıdır. Xəlqilik, vətənpərvərlik, humanizm, azadlığa, bərabərliyə, sülhə çağırış Şəhriyar poeziyasının başlıca mövzularıdır. Sıx surətdə klassik irs və şifahi xalq ədəbiyyatı ilə bağlı olan şairin yaradıcılıq dünyası müasirdir, o, dövrün ictimai həyatını həyəcanla, ürək ağrısı ilə əks etdirir.

**Narmin Aliyeva**

**THE SOCIAL AND POLITICAL MOTIVATIONS IN THE CREATIVITY OF MAHAMMAD HUSEYN SHAHRIYAR**

***Summary***

The article “The social and political motivations in the creativity of Mahammad Huseyn Shahriyar” is considered some problems related to the poetry of Mahammad Huseyn Shahriyar. The social-political themes of poet are investigated in the article.